*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 168-175* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2024.1.168*

# Xalq şairi Səməd Vurğunun Cənubi Azərbaycan şeirinə təsiri

**Lətifə Mirzəyeva**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

**Annotasiya.** Xalq şairi Səməd Vurğun hələ İkinci Dünya müharibəsindən əvvəl belə Cənubi Azərbaycanda yaxından tanınan və sevilən söz ustadı olmuşdur. Müharibə illərində şairin əsərlərinin orada oxucular arasında az tapılmasına baxmayaraq, onlar bir dəfə oxunan kimi əzbərlənmişdi. Ustad sənətkarın Azərbaycanın həm şimalında, həm də cənubunda yaranan əsərlərə böyük təsiri olmuşdur.
S.Vurğunun əsərlərinə Cənubi Azərbaycanın görkəmli şairləri bir çox cavab, təzmin, bənzətmə və nəzirələr yazaraq münasibət bildirmişlər. Şəxsiyyətinə şeirlər, poemalar, məqalələr həsr etmişlər. Onlar S.Vurğunu özlərinə ustad qəbul edərək onunla həmişə fəxr etmiş və qürur duymuşlar. Şairin “Azərbaycan” şeiri Cənubi Azərbaycan xanəndələrinin, sənət adamlarının, məktəblilərinin, ümumən bütün xalqın dilində əzbər olmuşdur. “Yandırılan kitablar” şeiri isə xalq arasında İran irticasına qarşı nifrəti daha da artırmış, onları mübarizliyə sövq etmişdir. Onun təsiri altında yaranan əsərlər isə dəyəri ilə Cənubi Azərbaycan ədəbiyyatının zənginləşməsinə öz töhfəsini vermişdir.
**Açar sözlər:** ustad, ilham, təsirlənmək, vüsət, həsrət

**Məqalə tarixçəsi:** göndərilib – 12.04.2024; qəbul edilib – 26.04.2024

# The influence of People’s Poet, Samad Vurgun on South Azerbaijani poetry

**Latifa Mirzayeva**
Institute of Literature named after Nizami Ganjavi of ANAS

**Abstract.** People’s poet Samad Vurgun was a well-known and loved wordsmith in Southern Azerbaijan even before the Second World War. Although the poet's works are rarely found among readers there during the war years, they were memorized as soon as they were read. The master poet had a great influence on the works created both in the North and South of Azerbaijan.
The prominent writers of South Azerbaijan expressed their opinions on Samad Vurgun’s works by writing many answers, tezmins, metaphors and nazires. They dedicated the poems and articles to his personality. They accepted Samad Vurgun as their master and were always proud of him. The poet’s poem “Azerbaijan” was memorized by khanendes (mugham singers), masters, school children of South Azerbaijan and the whole nation in general. The poem “Burned Books” increased the hatred for the Iranian reaction among the people and pushed them to fight. The works created by his influence contributed to the enrichment of South Azerbaijani literature with its value.
**Keywords:** master, inspiration, be affected, range, longing

**Article history:** received – 12.04.2024; accepted − 26.04.2024

## Giriş / *Introduction*

Şimali Azərbaycan şairlərinin, nasirlərinin bütün dövrlərdə cənublu həmkarlarına, onların yaradıcılığına hərtərəfli təsiri danılmaz faktdır. Cənubi Azərbaycanın qələm sahiblərinin həyat və yaradıcılığına müraciət edərkən onlara Nizami Gəncəvinin (1141-1203), Məhəmməd Füzulinin (1494-1556), Molla Pənah Vaqifin (1717-1797), Qasım bəy Zakirin (1784-1857), Mirzə Ələkbər Sabirin (1862-1911), Cəlil Məmmədquluzadənin (1869-1932), Mirzə Fətəli Axundzadənin (1812-1878), Süleyman Sani Axundovun (1875-1939), Abdulla Şaiqin (1881-1959), Əliağa Vahidin (1895-1965), Səməd Vurğunun (1906-1956), Süleyman Rüstəmin (1906-1989), Məmməd Rahimin (1907-1977), Rəsul Rzanın (1910-1981), Mirvarid Dilbazinin (1912-2001), Nəbi Xəzrinin (1924-2007), Bəxtiyar Vahabzadənin (1925-2006), Məmməd Arazın (1933-2004) və başqalarının təsirini görməmək mümkün deyil. Cənubi Azərbaycanın demək olar ki, bütün tanınmış şair və yazıçıları bu qələm sahiblərinin dəyərli əsərlərindən təsirlənmiş, onlara təzmin, bənzətmə, nəzirələr və cavab yazmışlar. Bu sənətkarların yaradıcılıqları onlar üçün tükənməz ilham mənbəyi və sözün əsl mənasında bir məktəb olmuşdur. Hətta o dərəcədə məktəb olmuşdur ki, bəziləri tanınmış qələm sahibi olmasının şimallı sənətkarların əsərləri olmadan mümkün olmadığını belə etiraf etmişlər. Məsələn: Cəlil Məmmədquluzadəni özünün müəllimi saymaqla fəxr edən fars və Cənubi Azərbaycanın mütərəqqi nəsrinin, xüsusilə uşaq ədəbiyyatının görkəmli nümayəndəsi Səməd Behrəngi (1939-1968), Süleyman Sani Axundovun yaradıcılığını yüksək qiymətləndirərək qardaşına göndərdiyi məktubların birində yazırdı ki, "Süleyman Sani Axundovun "Qorxulu nağıllar"ı olmasaydı, mən uşaq yazıçısı olmazdım" [11, s. 121].

## Əsas hissə / *Main part*

Hələ yaradıcılığının ilk dövründən Cənubi Azərbaycanın taleyi məsələsi əsas mövzularından olan xalq şairi Səməd Vurğun 1935-ci ildə qələmə aldığı və 1941-ci ildə Təbrizdə nəşr olunan "Təbriz gözəli" şeiri ilə o taylı oxucularının da yaddaşına həkk olunmuşdur. 1945-ci ildə artıq İranda böyük söz ustadı kimi tanınan şairin "30-cu illər yaradıcılıq və bədii fikri yüksəlişinin devizi" adlandırılan "Azərbaycan" şeiri Cənubi Azərbaycan xanəndələrinin, sənət adamlarının, məktəblilərinin, ümumən bütün xalqın dilində əzbər olmuşdur.

*Vurğunun şeirinin hər kəlməsini*
*Əzəldən duymuşam şirin can kimi*
*"Azərbaycan" şeirin yığdım sinəmə,*
*Sinəmdə bəslədim mehriban kimi.* [5, s.202]
*Firudin Hasari*

Cənubi Azərbaycanda, İranda ana dilində yazmağın çətinliklərini nəzərə alaraq hər bir Azərbaycanlının heç bir təzyiqə baxmayaraq, öz millətini, dilini unutmamasını, yazdıqlarını doğma ana dilində yazmalarını məsləhət görən Azərbaycan Milli Hökumətinin Daxili İşlər naziri olmuş yazıçı, dilçi, publisist, həkim Salamulla Cavid (1900-1981) yazırdı: "Yəqin bir gün gələcək Azərbaycan dili azad olacaq. Azərbaycan xalqı düşündüklərini doğma ana dilində yazıb nəşr etdirəcəkdir. Bax, mən bu günün həsrətilə yaşayıram. O günü görənlər xoşbəxtdirlər. Mən Milli Nehzət haqda yazdıqlarımı Azərbaycan Xalq şairi Səməd Vurğunun aşağıdakı şeiri ilə başlayıram:

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam məskənimsən,*
*Anam, doğma Vətənimsən.*
*Ayrılarmı könül candan,*
*Azərbaycan, Azərbaycan*! [4, s.58]

S.Vurğuna, onun yaradıcılığına böyük rəğbət bəsləyən Səməd Behrəngi şairin "Azərbaycan" şeirinə xüsusilə məftun idi!

Səməd Behrənginin qardaşı Əsəd Behrəngi xatırladır ki, "Mən Səmədin bu şeiri dəfələrlə "Milli himn" adlandırdığının şahidi olmuşam. O, şeirin bəzi parçalarını elə hərarət və ehtirasla oxuyurdu ki, ona qibtə etməmək mümkün deyildi" [1, s.438].

Xalq şairi S.Vurğunun Cənubi Azərbaycan şeirinə çox böyük təsiri olmuşdur. Cənubi Azərbaycanın əksər şairləri S.Vurğuna nəzirələr yazmış, şeirlər ithaf etmişlər, ondan təsirlənmişlər.

Məhəmməd Biriyanın "Azərbaycan Yazıçılar İttifaqının hörmətli sədri, ordenli şair Səməd Vurğuna", Mirmehdi Etimadın "Sovet Azərbaycanının qüdrətli şairi Səməd Vurğuna ithaf", Firudin Hasarinin "Hicran nəğməsi", Əli Tudənin "Dedin ki, görmədim....", Aşıq Hüseyn Cavanın "Dağlar", Mədinə Gülgünün "Torpaq da dil açdı", Kərim Məşrutəçi Sönməzin "İki Səməd, iki tale" şeirləri Balaş Azəroğlunun "Bakı səfəri" poeması, Hökumə Billurinin "Qəzəl"i, Əli Tudənin "Vətənpərvər şairin ünsiyyət dünyası" məqaləsi və bir çox başqa əsərlər S.Vurğunun Cənubi Azərbaycanda və İranda çox tanınmış, sevilmiş və ondan təsirlənmiş bir sənətkar olduğu qənaətinə gəlməyə əsas verir:

*Gah dağlara çıxdım, gah endim düzə,*
*Şibli gediyindən gəldim Təbrizə.*
*Hansı bahadırla başladım sözə...*
*Vurğun bükülməyən dizimdir..... dedi.* [10, s.19]

Cənubi Azərbaycan şairlərinin istər Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 25 illiyinə həsr etdikləri və istərsə də ayrı-ayrı "Azərbaycan" şeirlərində S.Vurğunun təsiri daha aydın görünür.

Xalq yazıçısı, akademik Mirzə İbrahimov (1911-1993) zəngin ədəbi irsi ilə yalnız Azərbaycanda deyil, bir çox ölkələrdə geniş şöhrət qazanmış Məhəmmədhüseyn Şəhriyarın (1905-1988) milyonları öz Vətəninin azadlığı naminə silaha sarılmağa, mübarizəyə qalxmağa sövq etmək qüdrətinə malik olan, yarandığı gündən başı böyük müsibətlər çəkmiş Vətənimiz barədə tam təsəvvür yaradan "Azərbaycan" şeirini S.Vurğunun "Azərbaycan" şeiri ilə müqayisə edir və onların emosional coşğunluq, dərin ictimai məna ilə yaxınlaşdıqlarını söyləyir.

Səməd Vurğun ilə M.Şəhriyarın yaradıcılıq yaxınlığı hər iki şairin Vətənə olan böyük məhəbbətindən qaynaqlanır. Onların hər ikisinin əsərlərində Azərbaycanın gözəlliyi, maddi və mədəni sərvətləri, insanların daxili və xarici aləmi vəsf edilmişdir:

*Vurğunun o həsrət nəğmələrinə*
*Şəhriyar səs verdi Təbriz elindən.* [20, s.152]

1945-ci ildə Azərbaycan ədəbiyyatşünası, tənqidçisi və şairi Cəfər Xəndan (1910-1961) "Səməd Vurğunun Cənubi Azərbaycan şeirinə təsiri" məqaləsində çox haqlı olaraq "Təbriz şairlərinin yaradıcılığını tədqiq və təhlil etdikdə onlara Səməd Vurğun yaradıcılığının dərin təsirini görürük [12, s.3] fikrini irəli sürmüşdür.

1946-cı ildə Təbrizin "Şairlər Məclisi"nin qərarı ilə Məclis üzvləri adından Məhəmməd Biriya, Mirmehdi Etimad Natiqi, Əli Fitrət, Mirmehdi Çavuşi, Sədi Zaman, Hüseyn Səhhaf, Məhəmmədbağır Niknam, Məhəmmədəli Fəxrəddin Məhzun, Yəhya Şeydanın imzası ilə S.Vurğunu Təbrizə dəvət etmək məqsədilə şairə göndərilən "Dəvətnamə - şeir"də də:

*"Səndən yeni ilham alır eşq əhli sərasər,*
*Ustadı qələmsən, sayılırsan bizə rəhbər"* [2, s.1]

– söylənilir.

Təbrizin məşhur şairlərindən olan Əli Fitrət (1890-1948) isə fəxrlə yazır:

*Gəlirsən hər zaman bəzmi-ədəblə nitqu-göftarə,*
*Hamı söylər sənə səd afərin sahib-hünər Vurğun!*
*Sənə şagird olan kimsə, olur ustad aləmdə,*
*Odur bizdən gərək qalsın belə bir xoş əsər Vurğun!* [9, s.3]

Cənubi Azərbaycanın talesiz şairi kimi tanınan Məhəmməd Bağırzadə Biriya (1914-1986) da S.Vurğunun özünə və yaradıcılığına yüksək qiymət vermiş və ondan çox təsirlənmişdir:

*Xəyalım üfüqündə gün kimi,*
*Axşam batıb, hər səhər çıxırsan.*
*Qələm tutub şeir yazan əlimi,*
*Məhəbbətlə möhkəm tutub sıxırsan.* [3, s.65]

M.Biriyanın bir sıra şeirlərində S.Vurğunun yaradıcılığından təsirlənməsi özünü göstərir. S.Vurğunun “Əgər səndən dönər isəm....” şeirindəki:

*Əgər səndən dönər isəm, nəsibim ahu-zar olsun*
*Baharım qar tökən qışlar açılmaz bir diyar olsun.* [21, s.304]

– misralarına bənzədərək M.Biriya Mirzə İbrahimova ithaf etdiyi “Olsun” rədifli qəzəlində deyir:

*Deyil mümkün hüzurunda ola şair sərəfkəndə*
*Əgər dönsəm öz əhdimdən mənə xalq içrə ar olsun.* [3, s.93]

Bu, S.Vurğun ilə M.Biriya arasında yaradıcılıq yaxınlığını göstərən onlarla misallardandır.

Öz ictimai mənzumələri ilə şöhrət tapmış Mirmehdi Etimadın (1900-1981) “Sovet Azərbaycanının qüdrətli şairi Səməd Vurğuna ithaf” şeirində S.Vurğunun Cənubi Azərbaycan şeirinə təsiri aydın duyulur:

*Şairim, gülşəni-hüsnünə camalın danışır*
*Baş çəkib göylərə bir yanda kamalın danışır.*
*“Bakı dastanını” aldım ələ baxdım bu gecə,*
*Hamu beynində dərin fikrü xəyalım danışır..*
*Yada saldıqca günəş fikrini ilham alıram,*
*Bu qəzəldə yazılan sehri-hilalın danışır.* [6, s.3]

Cənubşünas alim Sabir Nəbioğlu (1926-2014) yazırdı ki, “Görkəmli söz ustasının (Qulamrza Səbri Təbrizinin – L.M) yaradıcılığı haqqında fikir deməyə hazırlaşmaq prosesində dahi Səməd Vurğunun:

*Çarxını qurduqca dövranın əli,*
*Bəzən ağlar olur, bəzən gülməli.*
*İnsanın ən böyük eşqi, əməli*
*Bəzən aslan kimi çırpınır darda,*
*Bəzən qanad çalır fırtınalarda.*

–misralarından dərk etdiyim ağır çəkili mənaları əldə rəhbər tutmağı doğru yol hesab etdim.

Azərbaycanın uzun əsrlik söz sənəti kəhkəşanının parlaq səyyarələrindən biri yox, bu doğru olmazdı, səyyarəsi olmuş Səməd Vurğunun həmin misraları yaradıcılığı haqqında yazmağı qət etdiyim güneyli qələm dostumun poeziya aləminə aparan yolun məşəldarı oldu, desəm yanılmaram [15, s.8-9]!

Xalq şairi Nəbi Xəzrinin (1924-2007) Cənubi Azərbaycanın görkəmli şairi Kərim Məşrutəçi Sönməzə Səməd Vurğun yaradıcılığının təsiri haqqındakı fikirləri də maraq doğurmaya bilməz. N.Xəzri “Sərhədlərin o tayında” kitabının “Sönməz” başlıqlı bölməsində yazır:

"Onun çox səlis və obrazlı şeir dili vardır. Şimali və Cənubi Azərbaycanın ən gözəl poetik ənənələrini özündə cəmləşdirmişdir.

Mən bu barədə fikrimi ona belə izah etdim:

- Mənə elə gəlir ki, siz Səməd Vurğun və Səhənd günəşindən nur alıb Sönməz olmusunuz.

Savalan mənim bu sözlərimə şərik çıxdı.

- Düzdür, Nəbi müəllim! Onun ən çox sevdiyi, mütaliə etdiyi Səməd Vurğun və Səhənddir.

Bu söhbətdən bir ay keçəcək. Sönməz Bakıya yazdığı məktubunda bu fikri təsdiqləyəcək:

"Buyurduğunuz kimi, böyük Sovet Azərbaycanı şairi Səməd Vurğun və sonra rəhmətlik Səhəndin yaradıcılığı məndə çox təsir buraxmışdır.

Bizə şeir də, sənət də Şimaldan gəlir. İranda bütün Azərbaycanlıların radioqəbuledicilləri gecə də, gündüz də Bakı dalğasında durur [13, s.62-63].

K.M.Sönməzin (1928) Xalq şairi Səməd Vurğunu və Cənubi Azərbaycanın qüdrətli nasiri Səməd Behrəngini xatırladan "İki Səməd, iki tale" şeiri müəllifə oxucularında böyük rəğbət hissi oyatmışdır. Çünki, o taylı-bu taylı iki sənətkarın simasında bir xalqın ikili taleyindən yazmaq qadağalar və hədələrlə üzləşilən bir dövrdə insandan böyük cəsarət tələb edir.

S.Vurğunun Cənubi Azərbaycanın görkəmli şairi Bulud Qaraçorlu Səhəndə (1926-1979) də təsiri az olmamışdır. Bu, M.İbrahimovun "Dəli Domrul" məqaləsində də vurğulanmışdır. M.İbrahimov yazırdı ki, bu poemanı oxuduqda doğrudan da dərin bədii ləzzət aldım. Biz bu poemada müasir şeirimizin və onun qüdrətli nümayəndələrindən Səməd Vurğunun təsirini aydın görürük. Qoy olsun! Qoy Azərbaycan xalqının şeir və sənət dühası hər iki tərəfdə gözəl, ətirli meyvələr yetirsin"! [14,s.3]

B.Q.Səhənd özü də S.Vurğunun sözünün, şeirinin yaradıcılığına böyük təsirindən, şairin əsərlərindən yetərincə bəhrələnməsindən fəxrlə bəhs etmişdir.

*Ustadım Vurğundan söz dinlənərək*
*Qoy belə başlayım şeirimi, nolar,*
*O dahi sənətkar söylədiyi tək*
*"Mən cocuq deyiləm, xeyli yaşım var".* [19, s.93]

*Birlikdə insanlıq boyların çalaq,*
*Vallahi, xalqın da gözü bizdədir.*
*Qardaşım "Vurğun"dan söz borc alaq:*
*"Səadət çırağı əlimizdədir".* [18, s.318]

Bakını, Moskvanı görməmişdən əvvəl, onları S.Vurğunun əsərlərindən yaxından tanıyan B.Q.Səhənd "Sovet gözəli" şeirində isə:

*O böyük ustadı mən tanıyanda,*
*Nə Bakı görmüşdüm, nə də Moskva.*
*Ancaq öyrətdiyi prinsiplərdən*
*Mənə tanış idi bu yeni dünya* [19, s.10].

– deməklə S.Vurğunun yaradıcılığının vüsətinə heyranlığını bildirir.

B.Q.Səhənd Cənubda S.Vurğun ədəbi məktəbinin ən fəal davamçısı hesab edilir. Fil.e.d. R.Əliyev yazır ki, "S.Vurğunun başçılığı ilə Bakı ədəbi mühitində yeni Milli şeir dilinin və üslubunun yüksək tərəqqisi Cənubda poeziya prosesinə güclü təsir edir, onun dilində və üslubunda billurlaşma prosesini, meyillərini gücləndirirdi" [7, s.229].

Hələ uşaq vaxtı atası ilə birlikdə tez-tez təbiətin qoynuna gəzintiyə çıxan və onun gözəlliklərindən doymayan, sonralar o günləri xatırlayaraq Səməd Vurğunun:

*Hansı rəssamın əli ilə canlanır dünya evi,*
*Hər çəmən min qönçə açmış novbaharın eşqinə.* [22, s.111]

– misralarını yada salan Cənubi Azərbaycanın vətənpərvər şairi Həsən Məcidzadə Savalan (1940) S.Vurğundan az təsirlənməmişdir.

S.Vurğunun:

*Göylərə baş çəkir Göyəzən dağı,*
*Axşam açıq olur ayın qabağı.*
*Bizim gəlinlərin bayram qabağı*
*Fəsəli yaymağı yadıma düşdü.* [23, s.284]

–misralarından təsirlənən H.M.Savalan yazır:

*Göyə zirvəsi baş çəkən savalan, qoç dağımdan,*
*Yaz çağı tökülüb daşan sellər düşdü yadıma.*
*Məna dolu el şeirləri, bayatı, qoşma, qəzəl,*
*Bizim tarla, kamandakı tellər düşdü yadıma.* [17, s.53]

Azərbaycan Milli Hökumətinin süqutundan sonrakı dağıdıcı hadisələri yada salan Cənubi Azərbaycan xalqının qurtuluşu naminə igidlik göstərən şair Məhəmmədbağır Niknam (1921-1946) demişdir ki, Mərkəzi Hökumətin "Bülbüllərin belə gülə olan məhəbbətlərini şeirin dili ilə çatdıran bir diyarda ana dilində yazılan kitablardan, şeir və digər ədəbi nümunələr toplanmış məcmuələrdən qaladıqları tonqallar zəbanə çəkib yanırdı. Vətənin göylərini, üfüqlərini bürüyən tüstü boğanağı orta əsr cəlladlarının vəhşi əməllərini xatırladırdı. Belə bir vaxtda sənətini xitabət kürsüsünə çevirən Ulu Səməd Vurğun misralarını bütün dünyanın eşidə biləcəyi bir qətiyyətlə səsləndirdi:

*Cəllad: Sənin qalaq-qalaq yandırdığın kitablar*
*Min kamalın şöhrətidir, min ürəyin arzusu...*
*Biz köçərik bu dünyadan onlar qalır yadigar;*
*Hər vərəqə nəqş olunmuş neçə insan duyğusu,*
*Min kamalın şöhrətidir, min ürəyin arzusu...* [16, s.58-59]

S.Vurğunun "Yandırılan kitablar" şeirinin təsiri ilə bir çox şairlər şeir və məqalə yazmışlar. Şeirdə göstərilən: İran irticasının törətdiyi günahsız insanların dar ağaclarından asılması, fədailər nəslinin qırılması, qısa müddətdə əldə edilmiş quruculuq işlərinin darmadağın, xalqın mənəvi dəyərlərinin məhv edilməsi nə Süleyman Rüstəmin "Zindan görürəm", Əli Tudənin "Kitab tonqalı", Xəlil Rza Ulutürkün "Ağ günlərin qaraldımı", Balaş Azəroğlunun "Yandırılan kitablar" adlı əsərlərində də etiraz səsi ucaldılmışdır.

Fil.e.d. E.Fuad (Şükürova) yazır ki, "Bizə elə gəlir ki, Məniçöhr Əzizi Haray (1936-?) "Yandırılan sazlar" poemasını 30-40 il sonra məhz bu şeirdən (S.Vurğunun "Yandırılan kitablar" şeirindən – L.M) təsirlənərək qələmə almışdır: Bu addımın atılmasının dərin kökləri vardır. Axı "Tarım mənim", "Səbanın tarı", "Unudulmuş saz", "Qəmli ney", "Saz və yanğı", "Tacbəxtin kamanı", "Yanıqlı saz" və s. qəzəllərində ustadı Şəhriyar da tar, saz və ney kimi musiqi alətlərini xalq mənəviyyatının, xəlqi xüsusiyyətlərin daşıyıcısı kimi qiymətləndirirdi. "Çaldığın sazda ötən mən yazığın naləsidir", – deyən şair saz və tarı insanın ürək yanğısının, dərdlərinin melodraması, məlhəmi kimi dəyərləndirir və dədə-babalarımızın günümüzədək qoruyub saxladığı bu qədim alətləri Azərbaycan milli varlığının təzahürü sayırdı" [8, s.60].

**Nəticə / *Conclusion***

Zəngin yaradıcılığında mühüm yer tutan “Cənubi Azərbaycan” mövzulu əsərləri ustad şair Səməd Vurğunun cənublu soydaşlarımıza tükənməz məhəbbətinin, onların ağrılı-acılı həyatı ilə əlaqədar keçirdiyi narahatlıqların və uzun illərin Vətən həsrətinin canlı ifadəsidir. Yalnız bu əsərlərin deyil, şairin digər mövzulu əsərlərinin də Cənubi Azərbaycan şeirinə tarixən böyük təsiri olmuşdur, indi də olur və bundan sonra da olacaqdır. Bu təsir altında istər mövzusuna, istər məzmununa və istərsə də bədii dəyərinə görə yaranan əsərlərin Cənubi Azərbaycan ədəbiyyatının zənginləşməsində əhəmiyyətli yeri vardır. Cənublu şairlər haqlı olaraq, Səməd Vurğunu özlərinə ustad, rəhbər hesab edirlər.

**Ədəbiyyat / *References***


1. Behrəngi, S. Məhəbbət nağılı. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr, – 1987, – s.438
2. Biriya, M., Etimad, M., Fitrət Ə. və baş. Dəvətnamə-şeir. “Ədəbiyyat” qəzeti, 1946, 9 yanvar.
3. Biriya M. Əsərləri. (Tərt.ed. İ.Qəribli). – Bakı, Elm, 2010, s.65; 93.
4. Cavid S. Azərbaycan Milli Nehzətindən. O günün həsrəti ilə... (Tərt.ed. Ə.Mişovdağlı (Rəhimli). – Bakı: YURD, – 2005, – s.58.
5. Ellər Vurğunu. Vurğun ömrü məktublarda (Tərt.ed. Ş.Nəzərli). – Bakı: “Səməd Vurğun fondu”, – 1996, – s.202.
6. Etimad, M. Sovet Azərbaycanının qüdrətli şairi Səməd Vurğuna ithaf. “Kommunist”, 1945, 11 iyul.
7. Əliyev, R. Rza şah istibdadı illərində Cənubi Azərbaycanda ədəbiyyat (1923-1941). Cənubi Azərbaycan ədəbiyyatı tarixi. İki cilddə, II cild (XX əsr). – Bakı: Qanun, – 2013, – s.229.
8. Fuad (Şükürova), E. XX əsr Güney Azərbaycan epik şeiri. – Bakı: Elm və təhsil, – 2016, – s.60.
9. Fitrət, Ə. Səməd Vurğuna. “Kommunist”, 1945, 11 iyul.
10. Gülgün, M. Torpaq da dil açdı. Vurğun yaşayır. – Bakı: Yazıçı, – 1986, – s.19.
11. Hacıyev, M. Ölümü ilə doğulan insan. “Azərbaycan” 1986, №12, s.121.
12. Xəndan, C. Səməd Vurğunun Cənubi Azərbaycan şeirinə təsiri. “Kommunist”, 1945, 11 iyul.
13. Xəzri, N. Sərhədlərin o tayında... – Bakı: Azərnəşr, – 1987, – s.62-63.
14. İbrahimov, M. Dəli Domrul. “Ədəbiyyat və incəsənət”, 1965, 17 aprel.
15. Nəbioğlu, S. Təbrizdən başlanan dünya. – Bakı: Azərnəşr, – 2010, – s.8-9.
16. Nəbioğlu, S. İntizar günlərinin nəğmələri. – Bakı: Elm və təhsil, – 2013, – s.58-59.
17. Savalan, H.M. Tehranda bir Azərbaycan toyu. Duyğu çiçəkləri. İki cilddə, I cild. – Tehran: Fəhrəngi, –1384 (2005), – s.53.
18. Səhənd, B.Q. Dədəmin kitabı (Tərt.ed. ön söz və şərhlərin müəllifi F.Süleymanoğlu). – Bakı: Nurlar, – 2015, – s.318.
19. Səhənd, B.Q. Sazımın sözü. Seçilmiş əsərləri (Tərt.ed. R.Qəmbərqızı). – Bakı: Yazıçı, – 1984, – s.10; 93.
20. Vahabzadə, B. Gülüstan. Nağıl-həyat. – Bakı: Yazıçı, – 1991, – s.152.
21. Vurğun, S. Əgər səndən dönər isəm... Seçilmiş əsərləri (Tərt.ed. A.Salmansoy). – Bakı: Şərq-Qərb, – 2016, – s.304.
22. Vurğun, S. Qəzəl. Seçilmiş əsərləri. Beş cilddə, II cild (Tərt.ed. A.Salmansoy). – Bakı: Şərq-Qərb, – 2005, – s.111.
23. Vurğun, S. Yadıma düşdü əsərləri. Yeddi cilddə, I cild (Tərt.ed. O.Sarıvəlli, Ə.Hüseynov). – Bakı: Elm, – 1985, – s.284.

# Влияние народного поэта Самеда Вургуна на поэзию Южного Азербайджана

**Лятифа Мирзоева**
Институт литературы имени Низами Гянджеви НАНА

**Резюме.** Народный поэт Самед Вургун ещё до второй мировой войны был широко известен и любим как мастер пера в Южном Азербайджане. Несмотря на то, что в годы второй мировой войны произведения писателя там редко можно было встретить среди читателей, они заучивались с первого прочтения. Влияние мастера слова на создаваемые в Северном и Южном Азербайджане произведения было велико. Знаменитые поэты Южного Азербайджана выражали своё отношение к произведениям Самеда Вургуна написанием на них многочисленных ответов-назире, подражаний, переложений, созданием стихотворений, поэм, статей, посвящённых его личности. Они всегда гордились Самедом Вургуном, признавая его своим учителем. Изученное наизусть стихотворение поэта «Азербайджан» исполнялось в Южном Азербайджане певцами, артистами, школьниками и вообще было известно всему народу. А стихотворение «Сожжённые книги» ещё более усилило ненависть к иранским реакционерам, призывая народ к борьбе. Созданные под его влиянием произведения своей ценностью одарили и обогатили литературу Южного Азербайджана.
**Ключевые слова**: творец, вдохновение, влиять, диапазон, тоска